# Alman Dili Tədrisi Mərkəzində (SLZ Baku) keçirilən Goethe-Zertifikat imtahanlarının ümumi şərtləri

- Goethe-Zertifikat imtahanları üçün yaş həddi tövsiyələri Goethe-Institutunun İmtahan Qaydalarında qeyd edilib.

- İmtahan iştirakçıları imtahanı bitməmiş tərk edə bilər. Bu halda imtahandan qovulma halında olduğu kimi (bax: İmtahan Qaydalarının § 12), imtahan rüsumu geri qaytarılmır və iştirakçı imtahandan kəsilmiş hesab edilir.

- İmtahanda mobil telefon, kamera, mikrofon, smart saat və digər elektron cihazlar və köməkçi vasitələrdən istifadəyə icazə verilmir. İmtahan otağına qanunsuz olaraq sadalan əşyalar aparılarsa, imtahan iştirakçısı imtahandan kənarlaşdırılır.

- Xüsusi ehtiyacları olan imtahan iştirakçıları üçün imtahan yazılı müraciət əsasında təşkil edilə bilər. Ətraflı məlumat üçün imtahan iştirakçıları **SLZ Baku** pruefung@slz.az elektron ünvanına müraciət etməlidirlər.

- Sertifikatın itirilməsi halı baş verərsə, imtahan tarixindən sonra 10 il ərzində müəyyən rüsum qarşılığında arayış təqdim edilə bilər. Ətraflı məlumat üçün iştirakçılar Gürcüstandakı **Goethe-Institut-**a mail vasitəsi ilə müraciət edə bilər: pruefungen-tbilissi@goethe.de

- **Goethe-Institut Georgien** və **SLZ Baku** imtahan iştirakçılarının şəxsi məlumatlarını həm imtahan iştirakçıları ilə bağlanmış müqaviləni yerinə yetirmək məqsədi ilə, həm də hüquqi icazə çərçivəsində, həmçinin Goethe-Institutuna həvalə edilmiş şəxsi məlumatların qorunması məqsədi ilə əldə edə, üzərində işləyə və istifadə edilə bilər.

## Qeydiyyat

- İmtahanlara qeydiyyat öncədən açıqlanmış tarixlərdə online şəkildə aparılır. İmtahanlara yazılma qeydiyyat ardıcıllığı və mövcud yerlərə əsasən aparılır. İmtahanda iştirak üçün son qərarı **SLZ Baku** verir, müəyyən imtahan tarixində iştirak üçün hüquqi iddia qaldırıla bilməz.

- İmtahanın təkrar verilməsi yalnız 2 (iki) imtahan tarixləri arasında ən azı 4 (dörd) həftə ara olduqda və bu son imtahanın hansı mərkəzdə verilməsindən asılı olmayaraq mümkündür.

- Aktual qiymət və güzəştlər mövcud olan qeydiyyat tarixlərində keçərlidir.

- İmtahan rüsumunun **SLZ Baku**-nun hesabına tam şəkildə ödənilməsi ödəmə üçün təyin edilən tarixlərdə, kredit kart ilə online şəkildə baş tutur.

- **Goethe-Institut** imtahanı ləğv etdikdə, imtahan rüsumu tam olaraq imtahan iştirakçısına geri qaytarılır.

- İmtahan iştirakçısı xəstəlik səbəbindən imtahana gəlmədikdə, imtahan tarixindən sonra 3 iş günü ərzində tibbi arayış (Forma N100) təqdim etməlidir. Bu halda imtahan qiymətindən 50

AZN inzibati xərclər tutulacaq və yerdə qalan məbləğ 30 təqvim günü ərzində geri qaytarılacaq. **Bu yalnız Goethe-Zertifikat A1, A2 və B1, B2, C1 modul imtahanlarına aiddir!**

- Əgər imtahan iştirakçısı **Goethe- Zertifikat B1, B2, C1** imtahanı tam imtahan şəklində sifariş edib, lakin xəstəlik səbəbindən bir və ya bir neçə modullara gələ bilmirsə, imtahan rüsumu geri qaytarılmır və növbəti imtahan tarixinə keçirilmir.

- İmtahandan imtina yazılı şəkildə **SLZ Baku**-ya təqdim edilməlidir. İmtahandan imtina imtahan gününə bir gün qalmış mümkündür. Bu halda imtahan rüsumundan 50 Manat inzibati xərclər tutulacaq. Göstərilən müddətdən sonra pulun geri qaytarılması artıq mümkün deyil.

- İmtahan rüsumunu geri qaytarmaq üçün **SLZ Baku**-nun ünvanına pruefung@slz.az aşağıdakı sənədlər göndərilməlidir: şəxsiyyət vəsiqəsi və bank rekvizitləri. Ödənişlərin geri qaytarılması otuz gün ərzində həyata keçirilir.

## İmtahan nəticələri və sertifikat

- İmtahan iştirakçıları imtahandan öncə imtahan vərəqəsində qeyd edilən məlumatları yoxlamalıdırlar (ad, soyad, doğum tarixi və yeri) və uyğunsuzluqlar aşkar edildikdə **SLZ Baku**-ya müraciət etməlidirlər.

- İmtahan cavablarının dərc ediləcəyi müddət imtahana qeydiyyat zamanı və imtahan günündə iştirakçılara bildirilir. Sertifikatlar **SLZ Baku**-nun ofisinə çatdırıldıqda, imtahan iştirakçıları mail vasitəsi ilə məlumatlandırılır. İmtahan nəticələri **SLZ Baku**-nun internet səhifəsində dərc olunur.

- Sertifikat şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə götürülə bilər. Sertifikatı başqa şəxs götürməlidirsə imtahan iştirakçısının sənədi təqdim olunmalıdır.

- Şəxsi məlumatlarla düzəliş edilmiş yeni sertifikatın təqdim olunması ödənişlidir. İştirakçı **Goethe-Institut Georgien** əlaqə saxlamalıdır: pruefungen-tbilissi@goethe.de.

- Imtahan nəticələrinə yalnız iki həftə ərzində və aktual İmtahan Qaydalarına əsasən **Goethe-Institut Georgien (Tbilisidə)** baxıla bilər. Bu halda imtahan iştirakçıları mail vasitəsi ilə pruefungen-tbilissi@goethe.de müraciət edə bilər.

## Razılıq

- İmtahan iştirakçıları qeydiyyatdan keçərək www.goethe.de/georgien səhifəsində qeyd edilən imtahan qaydalarını, imtahanların icrası haqqında təlimatları və **SLZ Baku**-da imtahanın ümumi şərtlərini qəbul etmiş olurlar.

## Məsuliyyət

- **Goethe-Institutu** və **SLZ Baku** fövqəlada hallar, xüsusi ilə yanğın, sel, kəskin hava şəraiti, digər təbiət hadisələri, partlama, tətil, müharibə və başqa **Goethe-Institutu** və **SLZ Baku**-nun məsuliyyəti və təsiri olmayan hadisələr səbəbi ilə müqavilə şərtlərinin nə özləri nə də işçiləri tərəfindən icra olunmadığı təqdirdə məsulliyyət daşımır.

**Məhkəmə**

- Məhkəmə üçün müraciət Tbilisi şəhərində mümkündür.

**Ayri ayri hissələrin qüvvədən düşməsi**

- Bu ümumi şərtlərin ayrı-ayrı hissələri və ya müddəaları öz qüvvəsini itirdiyi təqdirdə digər hissələr öz qüvvəsini saxlayır. Qüvvəsini itirən müddəalar qanun çərçivəsində əvəz olunmalıdır. Bu müddəalar mümkün qədər ləğv olunan müddəalara həm məzmun cəhətdən həm də maliyə baxımdan yaxın olmalıdır.

**Aparıcı versiya**

- Hal-hazırkı ümumi şərtlərində alman və azərbaycan dili arasında uyğunsuzluqlar aşkar edilərsə **alman dili** əsas olaraq qəbul edilir. Ümumi şərtlərin aktual versiyası qüvvədədir. Bu bir qayda olaraq **SLZ Baku**–nun internet səhifəsində dərc edilən versiyadır.

**Goethe-Institut Georgien və SLZ Baku dəyişikliklər etmək hüququnu özündə saxlayır !**